# ZƏNGİLANIN TARİXİ-MEMARLIQ ABİDƏLƏRİ

***Qədim tarixə malik Azərbaycan ərazisi füsunkar təbiəti, bol təbii sərvətləri və nadir tarixi arxeoloji abidələrilə zəngindir.***

***Bu diyarın səfalı yerlərindən olan Zəngilan rayonu müxtəlif dövrlərdə gah bu, gah da digər bir imperiyanın tərkibində olmuşdur. Bölgə Kiçik Qafqaz dağlarının ətəyində, Araz çayı sahilində yerləşir. Ərazinin relyefi şimal-qərbdən cənub-şərqə doğru alçalır. Rayonun şimal-qərbində yerləşən Bərgüşad silsiləsi tədricən alçalaraq Bazarçayla Oxçuçay arasındakı Ağoyuq maili düzünü əmələ gətirir. Bərgüşad silsiləsinin ərazidə yüksək zirvəsi olan Süsən dağı dəniz səviyyəsindən 1304 m. hündürdədir. Bölgənin şimal-şərq tərəfində Qarabağ silsiləsi yerləşir. O da tədricən enərək Həkəri və Araz çaylarına doğru alçalıb, Gəyən çölünə keçir.***

Rayonun qərb tərəfində isə Mehri silsiləsi yerləşir. Onun ən yüksək zirvələrindən olan Bartaz dağı dəniz səviyyəsindən 2270 m hündürlükdədir. Rayonun cənub sərhədi Araz çayıdır ki, ondan da o tərəfdə Qaradağ silsiləsi yerləşir.

Ərazidə iki iqlim növü mövcuddur: Araz boyu ərazidə qışı quraq keçən yarımsəhra və quru çöl iqlimi, bir qədər hündür yerlərdə isə quraq keçən mülayim isti iqlim. Orta temperatur yanvarda – 1 C °, iyulda isə + 25 C ° olur. Yağıntının illik miqdarı orta hesabla 400-500 mm-dir.

*Tarixi*

Zəngilan ərazisi ən qədim yaşayış məskənlərindən hesab olunur. Bölgə ərazisindəki mağaralar (Əsgülüm və Süsən dağlarında) burada ibtidai insanların yaşayışından xəbər verir. Xüsusən Süsən dağında olan mağaradan tapılmış daş muncuqlar buna əyani sübutdur. Bu muncuqların bəzisi kobud şəkildə yumru hala salınmış, bəziləri isə cilalanmışdır.

Bölgənin Araz çayı boyunda şərqdən-qərbə, həmçinin Həkəri, Bərgüşad və Oxçu çayları boyunca cənubdan şimala doğru uzanan ticarət yollarının üstündə yerləşməsi, təbii olaraq ərazinin sürətli inkişafına təsir edir, onun digər ölkələrlə iqtisadi və mədəni əlaqələrini gücləndirirdi.

XX əsrin 60-cı illərində rayonun Yuxarı Yeməzli kəndi ilə Yeməzli kəndi arasında olan və "Şəhid Məhəmməd" adlanan yerdə təsərrüfat işləri görülən zaman xeyli küp qəbirlər aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, küp qəbirlər Kür-Araz çayları hövzəsində e.ə. II əsrdən eramızın əvvəllərinə kimi mövcud olmuşdur. Kişilərin dəfn olunduğu qəbirlərdən bülöv daşı, qadınların dəfn olunduğu yerlərdən isə muncuq və qolbağlar, həmçinin müxtəlif saxsı qablar, silahlar, nizə və ox ucluqları (bunlar əsasən metal və bürüncdəndir), sikkələr və s. Əşyaların tapılması bu bölgənin tarixi barədə müəyyən fikir söyləməyə imkan verir. Onlar e.ə. IV-II əsrlərə aiddir. Tədqiqatlardan sonra məlum oldu ki, bunlar bürüncdən kəsilmiş "Ellin" (yunan) pullarıdır. Bu sikkələrin ən qədimi Makedoniyalı İsgəndərin adına zərb olunan sikkələrdir. Bunlar Albaniyanın xarici-iqtisadi əlaqələrindən xəbər verir. Orta əsrlərdə Albaniyanın, Ərəb xilafətinin, Şəddadilərin, Səfəvilərin tərkibinə daxil olan bölgə özünün iqtisadi və mədəni inkişafını davam etdirmişdir. XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin zəifləməsi nəticəsində bu dövlətin (Səfəvilərin) ərazisi Osmanlılarla Rusiya arasında bölüşdürülür. 1724-cü ildə imzalanan İstanbul müqaviləsinə görə bölgənin ərazisi Osmanlı imperiyasının tərkibinə qatılır. Bölgənin ərazisi Osmanlıların apardığı inzibati bölgüyə əsasən Bərgüşad və Çüləndər ərazi inzibati vahidlərinə daxil olur.

XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı işğal etməsindən

sonra yeni inzibati bölgülər aparılır. Bölgə Gəncə quberniyasının Zəngəzur qəzasının tərkibinə qatılır. Zəngəzur qəzasına o zaman Sisiyan, Qafan, Mehri, Zəngilan, Qubadlı və Laçın bölgələri daxil idi. Zəngilanın ərazisi şərqdə Həkəri çayından Mehri silsiləsinə qədər ərazini əhatə edirdi.

1920-ci ilin 28 Aprel işğalından sonra bolşeviklərin köməyi sayəsində qədim türk torpaqları hesabına dövlət yaradan haylar (ermənі) Zəngəzur qəzasını da işğal etdilər.

Bu zaman özünü idarə etməyə qadir olmayan Azərbaycan SSR Moskvanın təkidi ilə Zəngəzuru haylara güzəştə getməli oldu. Nəticədə Zəngəzur qəzasının yuxarı hissəsi Ermənistana, Laçın, Qubadlı və Zəngilan bölgələri isə Azərbaycanın tərkibində qaldı. Sonra sovet hökuməti bu ərazini idarə etmək üçün burada Kürdüstan dairəsi adlı bir qurum təsis edərək Kəlbəcər bölgəsini də bura əlavə edir.

Moskvanın planı əsasında sənayeləşdirmə və kollektivləşdirmə başa çatdırıldıqdan sonra bütün Azərbaycanda yeni inzibati ərazi vahidləri yaradıldı.

1930-cu il avqustun 8-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin qərarı ilə Kürdüstan dairəsi ləğv edilərək onun əsasında Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonları yaradılır.

Zəngilan rayonu dəqiq əraziyə malik olan bir inzibati vahidlik kimi 8 avqust 1930-cu ildən mövcud olmuşdur. Zəngilan Azərbaycan Respublikasının inzibati rayonudur. Qərbdən və şimal-qərb tərəfdən bədnam qonşularımız olan Ermənistanla, cənub və cənub-qərbdən isə İran İslam Respublikası ilə həm-


*Məmmədbəyli türbəsi (XIV əsr)*

sərhəddir.

Sahəsi : 707 kv. km.

Əhalisi : 35000 nəfər (1 yanvar 1999-cu il)

Rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 1 qəsəbə, 83 kənd var idi.

Mərkəzi Zəngilan şəhəridir. Əhalisi 6700 nəfərdir.

*Tarixi-memarlıq abidələri*

Yuxarıda qeyd etdik ki, bölgə ərazisində qədim tarixə malik abidələr vardır. Bunlar əsasən Alban kilsələrindən, sərdabə, türbə və qalalardan ibarət olan tarixi - memarlıq abidələridir.

Bunlardan 1993-cü ilə kimi gəlib çatan Yeməzli kənd ərazi nümayəndəliyi ərazisində olan Alban kilsəsini, Hacallı kəndindəki dairəvi bürcü, Məmmədbəyli kəndindəki səkkizgüşəli türbəni, Şərifan kəndindəki sərdabəni, Yenikənd kəndindəki sərdabəni göstərmək olar. Təəssüf ki, bu tarixi-memarlıq abidələrindən yalnız ikisi - XIV əsrə aid Məmmədbəyli türbəsi və XII əsrə aid Şərifan sərdabəsi haqqında məlumat və şəkillər vardır.

*Məmmədbəyli türbəsi*

Rayonun Məmmədbəyli kəndində olan türbə dövrümüzə qədər salamat gəlib çatan abidələrdəndir. Günbəzin yuxarı hissəsi azca dağılmışdır. Türbə piramidal günbəzlə örtülmüş səkkizgüşəli prizmadan ibarətdir. Türbənin əsas qapısı şimal-qərb tərəfdədir (şəklə bax). Onun üzü çox sadə işlənmişdir. Burada yalnız giriş tərəf yaxşı işlənmişdir. Üz müstəvilərinin əsas hissələri batıqdır. Buna görə də türbənin küncləri bir qədər çıxıntılıdır. Türbənin qapısı yerdən 1,8 m hündürlükdədir. Orada yeraltı sərdabə də mövcuddur. Məmmədbəyli türbəsi Azərbaycanın bürcvari türbələrinə bənzəyir. Abidənin karnizi diqqəti cəlb edir. O qara rəngli daşdan işlənmişdir. Konstruktiv elementlərin mütənasibliyi, gözəl memarlıq kompozisiyası türbəyə monumental gözəllik verir.

Əsas tikinti materialı kimi daşdan istifadə edilmişdir. Kərpic tikintilərdə olduğu kimi bu türbənin divarı yükdaşıyıcı kütləyə və üzlüyə bölünmür. Üzlük eyni zamanda divarın əsas hissəsini təşkil edir.

Üst kamera divarının qalınlığı 86 sm olub, iki cərgədən ibarətdir. O, daxili və xarici üzlük daşlardan hörülmüşdür. Onların arası boş saxlanılmış, sonra məhlulla doldurulmuşdur. Bu cür tikintiyə Azərbaycanın başqa türbələrində də rast gəlinir. Türbənin üst günbəzini tikərkən də bu texnikadan istifadə olunmuşdur. Burada da günbəz ikiqatdır. Daxili günbəz sferik, xarici günbəz isə piramidal formadadır. Onların da arası məhlulla doldurulub.

1975-ci ildə ilk dəfə yeraltı sahə təmizlənmiş və türbənin sərdabəsi üzə çıxarılmışdır. Sərdabə 2,95 x 3,30 m ölçülü, düzbucaq şəkilli plana malikdir. O, 190 sm hündürlükdə çatmatağla örtülmüşdür. Sərdabəyə giriş



qərb tərəfdəndir. Qapının eni 76 sm, hündürlüyü isə 88 sm-dir.

İslam qaydalarına görə türbəyə və sərdabəyə girişin hündürlüyü 120 sm-dən artıq ola bilməz. Çünki bura girən bir qədər əyilməli, mərhuma ehtiramını bildirməlidir. Sərdabənin döşəməsi yaxşı cilalanmış daşlarla hörülmüşdür. Orta əsrlərdə belə türbələr adətən feodal əyanların, maddi durumu yaxşı olan və eyni zamanda tanınmış şəxslərin qəbri üstündə ucaldılırdı. Bu türbənin girişi üştündə olan və nəxş xətti ilə yazılmış bir kitabə vardır. Kitabədə deyilir ki, bu türbə 704-cü ildə Ramazan ayında (1305) Məhəmməd Əl-Xacənin qəbri üstündə tikilmişdir.

*Şərifan kəndindəki türbənin sərdabəsi*

Qeyd etmək lazımdır ki, əksər türbələr həm yeraltı, həm də yerüstü hissələrdən ibarət olur. Yeraltı hissədə sərdabə, üstündə isə türbə inşa edilirdi.

Zəngilan rayonunda, Həkəri çayının sağ sahilində yerlərdə Şərifan kəndində olan türbənin ancaq sərdabə hissəsi bizə gəlib çatmışdır. Türbənin üst hissəsi dağılmışdır. Onun yeraltı hissəsi, plana görə çıxıntılara malik kvadrat şəklindədir. Ölçüləri 5,4 x 5,4 m-dir. Sərdabənin 3 qolu çatmatağla, dördüncü tərəfi isə müstəvi tağtavanla örtülmüşdür. Sərdabənin cənub divarında dördbucaqlı formada taxçaya oxşar, çox da dərin olmayan mehrab vardır. Onun yan tərəfləri nazik tilli sütunlarla bəzədilmişdir. Tağın arxivoltu prizmatik çıxıntılı formadadır. Onun üstü üçbucaq şəkilli xonçalarla bəzədilmişdir. Divarlar yaxşı cilalanmış daş piltələrdən tikilmişdir. Onun şərq qolu çatmatağla örtülmüşdür. Həmin qolun qurtaracağında üstü kəsilmiş tağşəkilli qapı yeri vardır. O, müstəvi tağtavanla örtülü dəhlizə açılır. Tikintinin mərkəzi hissəsi günbəzlə örtülmüşdür. Divarlar və tağlar yaxşı cilalanmış daş piltələrdən hörülmüşdür. Abidənin yerüstü qalıqları onun bürcvari türbələrə oxşarlığını sübut edir.

*Hacallı kəndindəki dairəvi bürc*

Bu tarixi-memarlıq abidəsi də qorunurdu. Çox təəssüflər olsun ki, onun haqqında əlimizdə nə şəkil, nə də məlumat vardır. Bu abidə Məmmədbəyli və Şərifan türbələrindən fərqli olaraq səkkizgüşəli deyil, dairəvi formada olmuşdur. Bu bürcün dəqiq tikilmə tarixi bəlli deyil. Onun da səbəbi mütəxəssis rəyinin və arxeoloji tədqiqatların aparılmamasının nəticəsidir.

*Yenikənd sərdabəsi*

Həkərinin sağ sahilində olan Yenikənd kəndində də XIV əsrə aid sərdabə mövcud idi. Onun da üst hissəsi uçmuş, ancaq alt hissəsi dövrümüzə qədər gəlib çatmışdır. Burada da qəbir vardır. Lakin sərdabənin üst hissəsi uçduğundan kitabə də yoxa çıxmışdır. Bu səbəbdən həmin qəbrin kimə aid olduğunu söyləmək çətindir. Abidə vaxtında tədqiq olunmadığından onun haqqında ətraflı məlumat vermək imkanımız yoxdur.


*Türbənin giriş qapısı*

*Zəngilan şəhərində məscid*

Rayon mərkəzində olan bu məscid XVII-XVIII əsrlərə aiddir. Məscidin Səfəvilər dövründə tikilməsi güman edilir. Onun ölçüləri 10 x 20 m. idi. İçərisində mehrab və taxça var idi. Tikintidə əsasən yerli əhəng daşından istifadə olunmuşdur. Divarlar üzlənməmişdir. Bu məscidin də qapısı günçıxana açılırdı və onun üst tərəfində kitabə var idi.

Rayonda bundan başqa Bartaz, Sobu, Baharlı, Qıraq Müslan, Malatkeşin, Genlik kəndlərində, Mincivan qəsəbəsində də məscidlər var idi. Bu müqəddəs yerlərdən anbar kimi istifadə olunurdu. Onların heç biri öz funksiyasını yerinə yetirmirdi.

Rayon ərazisində tapılmış qoç heykəlləri və at fiqurları da uzaq keçmişimizdən xəbər verirdi.

*Bəsitçay Dövlət Qoruğu*

Rayonun ərazisində Bəsitçay hövzəsində 107 hektarlıq bir sahədə təbii çinar meşəsi var idi. O, Azərbaycan hökuməti tərəfindən qoruq elan edilmişdir. Bu təbii çinar meşəsi ərazisinə görə dünyada 2-ci qoruq idi. Burada bir neçə əsr yaşı olan təbii çinar ağacları var idi.

*Alban kilsəsi*

Bu tarixi abidə Yeməzli kəndinə yaxın bir yerdə, sovxozun idarə binasının 10-15 m.-də yerləşirdi. Bina çox gözəl görünüşə malikdir. Bu tikinti baxımsızlıq ucundan uçmaq təhlükəsi ilə üzləşmişdi. Baxımsızlığın da səbəbi o idi ki, həm rəhbərlik,

həm də yerli əhali onun kimə aid olduğunu bilmədikləri üçün ona əhəmiyyət vermirdi. Onu erməni kilsəsi hesab edirdilər. Qonşuluqdakı erməni kəndlərinin əhalisinin də bizim kilsə deməleri əhalinin əl-qolunu tamam bağlamışdı. Bəziləri onu uçurmağı təklif edirdilər. Lakin son dövrlərdə bu binaya maraq artdı və müəyyən edildi ki, bu heç də erməni kilsəsi deyil, qədim alban kilsəsidir. Bunu bir də o sübut edir ki, ətrafda olan kəndlərin hamısı Azərbaycan kəndləridir. Yaxınlıqda olan erməni kəndləri də 1920-ci ilə qədər Azərbaycana məxsus idi, əhalisinin də çoxu azərbaycanlı olmuşdur. Kilsənin ətrafında kiçik bir qəbiristanlıq da var ki, burada xeyli zamandır dəfn keçirilmir, ölü basdırılmırdı.

Kilsənin yerləşdiyi yerdə olan inzibati binada daş abidələrdən ibarət muzey yaradılmışdır.

*Koroğlu daşı və yaxud ağdaş*

Rayondan Bakıya gedən şose yolunun sol tərəfində ətrafdan xeyli hündür bir yerdə yerləşən 90 x 50 x 20 sm. ölçülü bir daş xalq qəhrəmanı Koroğlunun adı ilə hallandırılır. Ancaq faktlar və hadisələr göstərir ki, bu daş Koroğlunun yaşadığı dövrdən xeyli əvvələ aiddir.

Birincisi, bu daşın yerləşdiyi yerə Ağ oyuq, bəzən də Yazı düzü deyirlər. Bu adlar elə-belə təsadüfən yaranmamışdır. Tarixi yer adları olan toponimlər, oronimlər, hidronimlərin yaranmasında nə isə müəyyən bir fakt, hadisə mühüm rol oynayır. Qeyd etdiyimiz bu daş ağ rəngdədir. Daşın yuxarı hissəsində üz tərəfdə bir oyuq vardır. Bu oyuqda vaxtilə babalarımız şam, piltə (ocaq) yandırmışlar. Bunu həm atəşpərəstlər, həm də qədim türklərlə bağlamaq olar. Ərazinin hündürdə yerləşməsi onu söyləməyə imkan verir ki, burada yandırılan ocaq vasitəsilə müəyyən məlumatlar ötürülürdü. Rayonun ərazisində olan Əsgülüm, Süsən və Şükürataz dağlarının zirvəsindən bura ovuc içi kimi görünürdü. Məşəl vasitəsi ilə buraya istənilən məlumatı vermək mümkündür. Onu da qeyd edək ki, bölgənin ərazisindən lap qədim zamanlardan ticarət yolu kimi istifadə edilirdi. Buradan belə nəticəyə gəlmək olur ki, ağ oyuq yeri elə bu daşla əlaqədar yaranmışdır.

İkincisi, həmin əraziyə el arasında Yazı düzü də deyirlər. Bu da təsadüfı yaranmayıb. Həmin daşın üzərində ilk baxışda bizə tanış olmayan cızma-qaralar var. Sonralar müəyyən edildi ki, bu cızma-qaralar yazıdır. Özü də Orxon-Yenisey yazısı. Elə buna görə də həmin əraziyə yazı yeri, yazı düzü deyirlər. Hər iki fakt və dəlillər bunu deməyə əsas verir ki, bu daş uzaq keçmişimizin ən dəyərli yadigarı idi. Çox təəssüf ki, onlar da indi düşmən əlindədir.

*Qız qalası*

Bartaz kəndi ilə Vejnəli kəndi arasında hündür bir yerdə yerləşən bu qala ətraf yerlərdən çox yaxşı görünür. Çox da böyük olmayan bu qalacıq lap zirvədə inşa edilmişdir. Ondan başqa ətrafda digər bir tikinti yoxdur. Qalanın ölçüsü, yerləşdiyi ərazi və eyni zamanda tək olması onu deməyə əsas verir ki, bu müşahidə məntəqəsidir. Çünki bu nə istehkam, nə də əhalinin sığınacaq yeri ola bilməzdi. Burada nə sədd, nə də müdafiə qurğuları vardır. Bu cür qalaların əsasən müdafiə sədləri, divarları, bürcləri, geniş otaqları və sığınacaqları olurdu. Bunların heç birinə burada təsadüf edilmir. Həmin yerdən yuxarıda qeyd etdiyimiz ağ oyuq (yazı düzü) çox yaxşı görünür. Buradan məşəl vasitəsi ilə ətraf yerlərə siqnallar ötürülür, müəyyən xəbərlər verilirdi.

***Rayon ərazisində olan məscidlər.***

1. Zəngilan şəhər məscidi.
2. Mincivan qəsəbəsində məscid.
3. Qıraq Müslan kənd məscidi.
4. Malatkeşən kənd məscidi.
5. Bartaz kənd məscidi (XVI-XVII əsr).
6. Baharlı kənd məscidi.
7. Sobu kənd məscidi (XVII-XVIII əsr).
8. Şəfibəyli kənd məscidi.
9. Genlik kənd məscidi.
10. Yenikənd kənd məscidi.
11. Zəngilan kənd məscidi.
12. Sarıl kənd məscidi.
13. Xumarlı kənd məscidi.
14. Babaylı kənd məscidi.

Rayon mərkəzində ötən əsrlərdə inşa edilmiş və son günlərə qədər öz əzəmətini itirməyən və istifadə edilən ikimərtəbəli bəy evləri də var idi.

Bunlardan birində Rayon hərbi komissarlığı, ikincisində Rayon Daxili İşlər Şöbəsi, üçüncüsündə əvvəllər rayon Partiya Komitəsi, sonra rayon mərkəzi xəstəxanası və nəhayət, dördüncüsündə isə Rayon İcraiyyə Komitəsi yerləşirdi.

**Əli Cümşüdlü,**
**Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun dissertantı**